# ŞEİR GECƏSİ



AY Bəniz Əliyar

Mövlannə Cəlaləddin Rumi 8 əsr öncə "Ya olduğun kimi görün, ya da göründüyün kimi ol" vəhdəti-vücud ideyası ilə insanlara səslənirdi.

Poeziya dünyasından söz açacağım Qədiməli Əhməd olduğu kimi görünən insanlardandır.

*Xəyal qanadında qaranquş kimi,*
*Sərhədlər keçirmiş insan ümidi.*

Vətənə, Torpağa, Dünyaya, Qadınlara olan sevgi və dəyərin heç zaman əskilməyən bənzərsiz Şeir nümunələri...

Əbədi kədər və tənhalıq...

İnsan doğulanda xoşbəxt doğulur məncə... İnsan zamanla alır bütün yaraları... Zamanla qazanılan ağrıların hesabını itirdikcə möhkəmlənir, bəzi hallarda isə əksinə, daha tez qırılğan və ümidsiz olur....

Dünya həssas insanlar üçün əzab girdabıdır. Dünyanı düzəldəcək sanarlar belə insanlar. Dünya düzələn dünya deyil ki. Sevgi ilə nə yaraları sarmaq olar, kim bilir.... Sevgiylə bütün yaralar sağalar sanar belə adamlar...

*Unudulmuş bir taledi söz,*
*hələ ki,*
*verilir qulaq ardına.*
*Susduqca dəyərində,*
*deyiləndə qiymətindən,*
*yazılanda gözdən düşər...*

Dəyərindən, qiymətindən düşən sözdü bu gün. Əcəba, budurmu şairlik?

Sevgi də budurmu? Etiraf edərkən gücünü itirir... Hisslər anlamsızlaşır və yavaş-yavaş bitir.

*Dayanacaqlar və ağaclardan*
*xoşum gəlir...*
*Qatarlar, maşınlar şütüyür,*
*Ağacların kölgəsində*
*yollara boylanan ümid var axı...*

Yollardı bizi ümidimizə aparan. Yollar olmasa, məgər ki, qovuşmaq və ayrılmaq mümkünmü? Əsla! Yollar qazandıqlarımızın və itirdiklərimizin şahididir. Yollar sirdaşımız və dostumuzdur.

*Hər kişinin ürəyində*
*sevdiyi qadının büstü gizlənib...*
*Sevgisini gizlədir*
*ömrünün axırınacan.*
*Tüstüsü başından çıxan kişilər...*
*Hər kişinin ürəyində*
*sevdiyi qadının büstü gözlənib...*

Artıq bu başqa mövzudur. Artıq burda çarəsizlik və ötən zamanın harayı özünü göstərir. Ürək yanır, ümidlər qırılır və insan daxili aləmiylə üsyana



keçir.

Üsyan olmasa qələbə olmaz, qələbə olmasa həyat öz mənasını itirər. Üsyan daimi insan ruhunu yeniləməkdən ibarətdir. İnsan ruhu sakit qala bilmir, üsyan edir və yenilənir... Təzə doğulan körpə kimi olur Şair ürəyi... Sətirləri və şeirləri də o ürəkdən su içir və arayaərsəyə gəlir.

*O axşam, - bir şeir oxu, - dedin sən,*
*Hicranla, həsrətlə dinsin hər sözü.*
*Oxu, qəmli oxu, sən Allah, dedin,*
*Kövrəltsin ürəyi, yaşatsın gözü....*

"O axşam" o şeir oxunmadı bəlkə. "O axşam" min elə şeirlərin yazılmasına səbəb oldu. "O axşam" gözlədiyimiz gəldi, ocağımız qızdı, ümidlərimiz yenidən doğuldu. "O axşam" mən mən, sən sən idin, biz olan iki insanın sevgi dünyası dağılmaz idi. Dağılmayacaqdı. Zəlzələ olmayacaqdı dünyamızda....

Bütün bunlar bir Şair ruhunun ağrı üzərində qələbəsidir...

*Məndə də tənhalıq gecələyirmiş...*
*Nə çox uzun çəkdi bu qış gecəsi?*
*Pəncərəm önündən çox uzaqlara*
*Boylanıb baxıram tənhalığımdan....*

Gecə davam edir, axşamın gətirdiyi ümid sevinci bitir və ayrılıq başlayır. Gecə soyuyur, otaq və o otağın içindəki tək adamlıq yataqda buz bağlayır yavaş-yavaş. Adam üşüyür. Adam özünü öldürə bilmir. Nə kəndiri bağlamağa, nə kətili düzəltməyə heyi qalmayıb. Doğacaq sabaha qırılmayan baxışlarından boylanır....

*İçimdəki yarpaq-yarpaq*
*saralan ümidlər sonsuz deyil...*
*Bu axşam töküldü ayaq altına...*
*Bu gecə dağınıq yuxularımdan*
*kipriklərim nəm götürdü,*
*baxışlarım qəm götürdü.*

Bəli!.. Bax elə bu idi, yuxarıdakı əzab karvanının son dayanacağı. Bu idi, Şairin iç dünyasının ağrısı. Hər şey bitir, ağrı da, əzab da, Şair özünü yeyib-bitirir sətirlərdə, Şair ömrü də bitir. Bəs nədir bunca təsəlli, səbir, gözlənti?

Şair dünyasının göylərə olan sevgisi və o sevgidən hər sabah yenicə doğacaq yepyeni arzuları... Şairin sevgisi bitərsə bitər Şair.

*Səbrim mənim baş daşımdı,*
*elə qoyulub,*
*Səbrimlə aramda boğulub səsim.*
*Susduğum dünyamdan çıxa bilmirəm...*
*Yolları bağlıdır, mən ha tələsim...*

Heç harda qərar tutmayan ürək sətirlərdəmi rahatlandı? Nə gözəl deyilmi?

Şair qələminin yaradıcılığında sayılacaq uğurlardan ən birincisidir bu. İnsan dünənindən sıyrılıb qaçmaq istəyir, xilas yolunu yazdıqlarında, bölüşdüklərində axtarır. Və tapır...

*İndi kitab rəfindəki məktublar*
*dağınıq günlərimdən*
*qalan xatirələrdir.*
*Saralan arzu kimi*
*son ümidə söykənib.*

"Son ümid" insanın və ələlxüsus d,a Şairin ömrü boyu tutunacağı yerdir. İnsan insana tutunmaz, insan özünə və içindəki gücə, ümidə, güvənə tutunub yaşayar.

Fəlsəfə, məntiq, idrakın təcəssümü, insanı şəxsiyyətə çevirəcək nə varsa, insan ruhunun açılmayan üzündə var. Allahın lütfündən əskik olmayan bir tale Qədiməli Əhməd taleyinin nəsibidir. Umduğumuz bütün gözəllikləri bəzən xəyal, bəzən gerçəklik kimi yaşamaq gücündə olan bir Şairdir Qədiməli Əhməd... Bir çoxlarının həsəd apara biləcəyi tale sahibidir.

*Sökülür dan yeri, gecikir qatar,*
*Sənsiz qayıdarmı yolları eşqin?*
*Hardan baş qaldırdı dəli rüzgarlar?*
*Çırpıldı üzünə telləri eşqin.*

Əbədi tənhalıqla başlayan bir ömrün tənhalığı keçməz. Bununla yanaşı ümidləri də artaq və çoxalar. Hər günə şükür diləyiylə əllərimiz və ovuclarımız boş, qəlbimiz dolu olar. Göylərin sevgisi bizi tərk etməz. Biz də göylərin bizə əta etdiyi bu xoşbəxtliyi Şair adına yaşayıb ömrümüzə qaldığı yerdən davam edərik.

Yazımı Qədiməli Əhmədə yazdığım bir şeirimlə bitirmək istəyirəm.

## KAŞ

*"Kaş mənim də görüş yerim olaydı."*

***Qədiməli Əhməd***

*Bir ümidə üz tutaydım gizlicə,*
*Baxışları yollarımda qalaydı.*
*Durub məni gözləyəydi hər gecə,*
*Kaş mənim də görüş yerim olaydı.*

*Şeir olub sətirlərdə bitəydim,*
*Bir baxışla vüsalına yetəydim.*
*Sevgim ilə ətirlənib gedəydim,*
*Kaş mənim də görüş yerim olaydı.*

*Məhəbbətim gözlərinə çökəydi,*
*Qəm bürcünü pillə-pillə sökəydi.*
*Gündüzlər də həsrətimi çəkəydi,*
*Kaş mənim də görüş yerim olaydı.*

*Rəng qataydı həyatıma sözləri,*
*Oxşayaydı əllərimi gözləri,*
*Evlərinə aparaydı izləri,*
*Kaş mənim də görüş yerim olaydı.*